*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır   23 dekabr 2015-ci il   № 97 (2013)   Qiyməti 25 qəpik

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Azərbaycan öz haqqını bərpa etməli və bu yolda istənilən vasitəyə əl atmalıdır

### Müdafiə Nazirliyinin rəhbərliyi cəbhə bölgəsində yerləşən hərbi hissələrdə olub



***Bu günlərdə Azərbaycan xalqı görkəmli siyasi xadim, müasir dövlətimizin qurulmasında və Silahlı Qüvvələrimizin formalaşmasında misilsiz xidmətləri olmuş dahi rəhbər Heydər Əliyevin anım gününü böyük hörmət və ehtiramla qeyd etdi. Doğrudan da, ulu öndərimiz daim xatırlanacaq, çünki onun gördüyü işlərin, müəllifi olduğu islahatların dəyəri ölçüyəgəlməzdir. Onun xalqımız qarşısında müstəsna xidmətlərindən biri də doğma ordumuzun formalaşması naminə gördüyü işlərdir.***

Ulu öndər tərəfindən əsası qoyulan ordu quruculuğu strategiyası müasir dövrdə onun siyasi kursunun layiqli yetirməsi, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən inamla davam etdirilir. Hələ 2003-cü ildə ölkəmizdə siyasi hakimiyyətə gəldiyi ilk gündən ordu quruculuğunun inkişaf etdirilməsinin dövlətimizin əsas prioritetlərindən olduğunu bəyan edən dövlətimizin başçısı vurğulamışdı ki, Azərbaycanda hərbi xərclər dəfələrlə artırılacaq və işğalçı ölkənin ümumi dövlət büdcəsini üstələyəcəkdir. Artıq bu siyasət reallığa çevrilib, həqiqətən orduya ayrılan hərbi xərclər elə bir səviyyədədir ki, bu gün müxtəlif qoşun birləşmələri, hərbi hissələr müasir silah və hərbi texnika ilə təchiz edilib. Həmçinin, ötən illərlə müqayisədə hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün dəyərli işlər həyata keçirilir. Ali Baş Komandanın göstərişinə əsasən, bütün bölgələrdə müasir tələblərə cavab verən yeni hərbi hissələr tikilib istifadəyə verilir.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov yeni hərbi hissələrin, müasir hərbi şəhərciklərin açılış mərasimlərində iştirak edən zaman dəfələrlə qeyd edib ki, görülən bütün işlər dövlət rəhbərliyinin ordu quruculuğuna verdiyi önəmin, diqqət və qayğısının parlaq təzahürüdür. Hazırkı mərhələdə, yəni bütün dünyanın maliyyə çətinlikləri ilə üzləşdiyi dövrdə belə hərbi sahə diqqət mərkəzindədir. Yenə də cəbhə bölgəsində təzə hərbi hissələr inşa edilir, döyüşçülərin məişət şəraitini yaxşılaşdırmaq üçün tədbirlər görülür. Əgər hazırkı mərhələdə ordu quruculuğunda həyata keçirilmiş yenilikləri əvvəlki dövrlərlə müqayisə etsək, böyük həcmdə fərqi hiss edərik. İndi nəinki hərbi hissələrdə, hətta düşmənlə təmas xəttindəki taqımların dayaq məntəqələrində müasir məişət sistemi inşa edilir. Görülən bu tədbirlər Vətənimizi işğalçılardan qoruyan hərbi qulluqçuların hər birində yüksək əhval-ruhiyyə, xoş ovqat yaradır, onları böyük qələbəmiz naminə haqq savaşında əzmli və mübariz olmağa ruhlandırır.

**(Ardı 2-ci səhifədə)**

## Azərbaycanın Baş nazirinin müavini Cenevrədə bir sıra beynəlxalq təşkilatların rəhbərləri ilə görüşüb

Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənovun rəhbərliyi ilə nümayəndə heyəti İsveçrənin Cenevrə şəhərində bir sıra görüşlər keçirib. Görüşlərdə Dövlət Miqrasiya Xidmətinin rəisi Firudin Nəbiyev də iştirak edib.

Əli Həsənovun Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) prezidenti Peter Maurer ilə görüşündə ölkəmiz ilə bu təşkilat arasında əməkdaşlığın hazırkı vəziyyətindən məmnunluq ifadə edilib və əlaqələrin inkişaf perspektivləri barədə müzakirələr aparılıb. Azərbaycanın qaçqın və məcburi köçkünlərlə bağlı təcrübəsi, xüsusilə dünyanın müxtəlif ölkələrindəki humanitar layihələrdə iştirakı təqdir olunub. Ölkəmizin bu sahədə zəngin təcrübəsi nəzərə alınaraq BQXK və Azərbaycan arasında əməkdaşlığın yeni istiqamətləri ətrafında fikir mübadiləsi aparılıb. Dünyanın müxtəlif böhran bölgələrində BQXK ilə birgə layihələrin həyata keçirilməsi üçün hökumətə müraciət olunması təklif edilib. Görüşdə, həmçinin, BQXK və onun tərəfdaşlarının əvvəllər olduğu kimi, əlavə dəyər vergisindən azad edilməsi və hökumət tərəfindən bu təşkilatın fəaliyyətinə maliyyə dəstəyinin artırılması məsələləri qaldırılıb.

Baş nazirin müavini görüşdə Azərbaycandakı mövcud sosial-iqtisadi inkişafdan bəhs edib, qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirildiyini söyləyib, xüsusilə Azərbaycan Prezidenti tərəfindən 2020-ci ilədək müəyyənləşdirilmiş strateji istiqamətlər barədə məlumat verib.

Əli Həsənov bu gün Azərbaycanda tolerant mühitin hökm sürdüyünü, müxtəlif dinlərə etiqad edən şəxslərin sərbəst şəkildə öz dini məbədlərində ibadət edə bildiyini, paytaxt Bakıda hətta erməni kilsəsinin olduğunu, monoetnik Ermənistanda isə məscidlərin dağıdıldığını qeyd edib. O, 9,6 milyondan artıq əhalisi olan Azərbaycanda 1,2 milyon qaçqın və məcburi köçkünün yaşadığını diqqətə çatdıraraq, Azərbaycan dövləti və hökumətinin bu sahədə gördüyü işlərdən danışıb.

Görüşdə müharibə şəraitində olan Azərbaycanda Beynəlxalq Qırmızı Xaç Komitəsinin rolunun mühüm önəm kəsb etdiyi və bu xüsusda təşkilatın Bakı ofisinin fəaliyyətinin təqdirəlayiq olduğu qeyd edilib. Həmçinin, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı itkin düşmüş və girov götürülmüş şəxslərlə bağlı məsələyə toxunulub. Baş nazirin müavini hərbi münaqişədən əziyyət çəkən və torpaqları işğal altında olan Azərbaycanda qaçqın və məcburi köçkünlərlə bağlı vəziyyət barədə məlumat verib, o cümlədən bu beynəlxalq təşkilatın əsir və girovların saxlanma şəraitinin yaxşılaşdırılması, onların ailələri ilə ünsiyyət qurmasının təmin edilməsi istiqamətində böyük töhfə verə biləcəyini qeyd edib.

Baş nazirin müavini Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə BQXK-nın prezidentindən erməni əsirliyində olan girovlar Dilqəm Əsgərov və Şahbaz Quliyevin müasir kommunikasiya imkanlarından istifadə edilməklə öz ailə üzvləri ilə birbaşa təmas qura bilməsi üçün kömək göstərilməsini xahiş edib.

Beynəlxalq Qırmızı Xaç Komitəsinin prezidenti P. Maurer təmsil etdiyi təşkilatın erməni əsirliyində olan Dilqəm Əsgərov və Şahbaz Quliyevin vəziyyəti ilə mütəmadi şəkildə maraqlandığını və onların saxlanma şəraitinin yaxşılaşdırılması üçün səylər göstərildiyini deyib. O, Azərbaycanın qaçqın və köçkünlərin vəziyyətinin yaxşılaşdırılması istiqamətində fəaliyyətini yüksək qiymətləndirib və ölkəmizin BQXK-nın fəaliyyətinə verdiyi güclü dəstəyə görə minnətdarlıq edib.

Görüşün sonunda Baş nazirin müavini Beynəlxalq Qırmızı Xaç Komitəsinin prezidentini Azərbaycana səfərə dəvət edib.

**AZƏRTAC**

## Antonius Bruk:
## Azərbaycan ilə BMT-nin strukturları arasında əlaqələrin inkişafı məmnunluq doğurur

Xarici İşlər naziri Elmar Məmmədyarov fəaliyyətinin başa çatması ilə əlaqədar BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi, BMT İnkişaf Proqramının rezident nümayəndəsi Antonius Bruk ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Elmar Məmmədyarov BMT İnkişaf Proqramının rezident nümayəndəsi kimi fəaliyyəti müddətində Azərbaycan və BMT strukturları arasında əlaqələrin inkişafına verdiyi töhfəyə görə A.Bruka təşəkkürünü ifadə edib. Müstəqilliyinin ilk illərindən Azərbaycan və BMT sistemi arasında faydalı və hərtərəfli əməkdaşlığın qurulduğunu deyən nazir ölkəmizin BMT çərçivəsində siyasi dialoq və praktiki əməkdaşlıqda fəal iştirak etdiyini bildirib. O, Azərbaycanın BMT-nin seçkili orqanlarında iştirak etməklə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinin yerinə yetirilməsinə öz töhfəsini verdiyini diqqətə çatdırıb. Bu xüsusda, Azərbaycanın 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsi naminə məhsuldar fəaliyyətini qeyd edib.

Nazir Elmar Məmmədyarov Ermənistan-Azərbaycan münaqişəsinə dair BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrin tələblərinin Ermənistan tərəfindən yerinə yetirilməsinin vacibliyini vurğulayıb.

Antonius Bruk fəaliyyəti dövründə ona göstərilən dəstəyə görə təşəkkürünü bildirib, həmçinin, Azərbaycan ilə BMT-nin əsas orqanları və ixtisaslaşmış təşkilatları arasında əlaqələrin inkişafından məmnunluğunu ifadə edib.

Nazir Elmar Məmmədyarov Antonius Bruka gələcək fəaliyyətində uğurlar arzu edib.

## Tatyana Borzova:
## Ermənistan "Kim erməni deyilsə, ərazilərimizi tərk etsin!" siyasətini yürüdür

***Ermənistan hələ Sovet dövründə digər millətləri öz ərazisindən sıxışdırıb çıxaran və ya özünə tabe edən mono respublika idi. İndi isə vəziyyət daha da acınacaqlıdır. Son 10 il ərzində Ermənistandan köçənlərin 64 faizi rusdilli əhalidir. Bundan başqa, Ermənistanda əsrlərlə yaşayan azərbaycanlılar, gürcülər, belaruslar, ukraynalılar da bu ölkəni tərk etmək məcburiyyətində qalıblar. Bu gün Ermənistan "Kim erməni deyilsə, zəhmət çəkib bizim əraziləri tərk etsin!" siyasətini yürüdür.***

Bu fikirləri Rusiyanın "İnterfaks" agentliyində "MDB və Baltikyanı ölkələrdə rusdilli vətəndaşların vəziyyətinin öyrənilməsi" mövzusunda keçirilən mətbuat konfransında Avrasiya Strateji Tədqiqatlar İnstitutunun eksperti Tatyana Borzova deyib. Ekspert qeyd edib ki, Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsindən rusdilli əhali kütləvi şəkildə köçür. İnstitutun Dağlıq Qarabağdakı rusdilli icma ilə telefon vasitəsilə apardığı sorğunun nəticələri göstərib ki, son bir ildə bu bölgəni min rusdilli ailə tərk edib.

Avrasiya Strateji Tədqiqatlar İnstitutunun "NGO Acceptare" qeyri-hökumət təşkilatı ilə birlikdə apardığı tədqiqatın nəticələrinə görə, MDB ölkələrində rusdilli əhaliyə münasibət Azərbaycanda daha ürəkaçandır. Azərbaycanda rus dilində orta və ali təhsil almaqla yanaşı, rusdilli əhali bütün dövlət və qeyri-dövlət strukturlarında işlə təmin oluna bilir, rus icmasının nümayəndəsi parlamentdə təmsil olunur. T.Borzova deyib: "Azərbaycana səfərim zamanı Bakı Slavyan Universitetində oldum. Bu ali məktəbin mütəxəssisləri bizi ölkənin digər bölgələrinə səfərlərdə də müşayiət edirdilər. Heydər Əliyev Beynəlxalq Aeroportundan tutmuş ən ucqar bölgələrədək heç yerdə rus dilində ünsiyyət bizim üçün maneə yaratmırdı. Rusdilli əhaliyə bu cür münasibətə görə Azərbaycana minnətdarıq". Tədqiqat çərçivəsində aparılan sorğunun "Fikrinizcə, yaşadığınız ölkədə rusdilli əhalinin hüquqlarının pozulması üçün hansı səbəblər ola bilər" sualına Azərbaycanda dini əqidə səbəbini heç kim misal gətirməyib. Halbuki, dini baxımdan Rusiyaya yaxın Ermənistanda rəyi soruşulan rusdilli əhalinin 3,27 faizi dini əqidəsinə görə hüquqlarının pozulmasından şikayət edib.

Ermənistana səfərindən danışan T.Borzova vurğulayıb ki, rusdilli mətbuatda yazılanlarla Ermənistandakı vəziyyət arasında böyük fərq var. O deyib: "Mən Ermənistanda Sovet dövründə də olmuşam. Ancaq budəfəki səfərim məni şok vəziyyətinə saldı. Hətta Amerikada belə mənə yolu göstərə biləcək rusdilli yerli sakin tapmaq çətin deyildi. Ermənistanda bununla bağlı çox böyük problemlərim oldu. Bu ölkədə rus dilində danışan qonağa olduqca pis münasibətlə rastlaşdım".

Mətbuat konfransının digər iştirakçısı, "NGO Acceptare" qeyri-hökumət təşkilatının prezidenti Viktoriya Pavlenko deyib ki, Azərbaycanda qanunvericiliyə görə, rusdilli əhalinin rus dilində informasiya almaq, təhsil almaq hüququ var. Azərbaycanda qanunvericiliklə faktiki vəziyyət arasında tam uyğunluq müşahidə olunur.

Tədqiqatın nəticələrindən məlum olur ki, Ermənistan təhsil müəssisələrində rus dili hətta fakultativ səviyyədə belə öyrənilmir. V.Pavlenko deyib: "Ermənistanda rus dilində təhsilin səviyyəsinin getdikcə aşağı düşməsi həm də onunla əlaqədardır ki, bu ölkədə rus dilində təhsil alan əhali, demək olar qalmayıb. Bütün bunlar Ermənistanın tamamilə monomilli dövlətə çevrilməsi istiqamətində atılan addımlardır. Rusdilli əhalinin ölkədən köçməsi baxımından, Ermənistan MDB respublikaları arasında birinci yeri tutur".

**AZƏRTAC**

## Azərbaycan səfiri Fransa portalına müsahibəsində ölkəmizlə bağlı həqiqətlərdən bəhs edib

Azərbaycanın Fransadakı səfiri Elçin Əmirbəyov müsahibəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, ölkəmizin geosiyasi mövqeyi, dinlərarası və mədəniyyətlərarası dialoqun inkişafına töhfələri və s. haqqında danışıb.

Səfir Dağlıq Qarabağ münaqişəsinin tarixi barədə məlumat verərək ölkəmizin ərazisinin 20 faizinin işğal olunduğunu, bir milyondan çox azərbaycanlının öz yurd-yuvalarından didərgin salındığını diqqətə çatdırıb. O, BMT-nin və digər beynəlxalq təşkilatların Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasına dair qətnamə və qərarlarına hələ də əməl olunmadığını vurğulayıb. Diplomat Dağlıq Qarabağ münaqişəsinin Avropa mətbuatında lazımi səviyyədə işıqlandırılmasının vacibliyini qeyd edib.

E.Əmirbəyov geosiyasi mövqeyinə görə Avropa ilə Asiya arasında körpü rolunu oynayan Azərbaycanda müxtəlif xalqların sülh, dostluq şəraitində yaşadığını, antisemitizmin heç bir əlamətinin olmadığını bildirib.

Səfir müsahibəsində Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində fəal rol oynadığını və bu sahədə bir çox layihələrin təşəbbüskarı olduğunu diqqətə çatdırıb. O, həmçinin Azərbaycanın bir çox beynəlxalq tədbirlərə ev sahibliyi etdiyini bildirib.

**AZƏRTAC**

# Azərbaycan Respublikası Müdafiə nazirinin Türkiyəyə rəsmi səfəri



***Dekabrın 17-də İstanbul şəhərində Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovla Türkiyə Respublikasının Milli Müdafiə naziri İsmət Yılmaz arasında görüş keçirilib***

Nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə müdafiə nazirləri ölkələrimiz arasında hərbi əməkdaşlığın daim inkişaf etdiyini, strateji tərəfdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu qeyd ediblər.

Tərəflər bu günlərdə Bakıda keçirilən Azərbaycan-Türkiyə 8-ci Yüksək Səviyyəli Hərbi Dialoq İclasının nəticələrini əks etdirən yekun Protokolunun imzalanmasını da xüsusi qeyd edərək Silahlı Qüvvələrimiz arasında əlaqələrin inkişaf perspektivləri, hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın imkanları, birgə təlimlərin keçirilməsi, o cümlədən regional və qarşılıqlı tərəfdaşlığa dair bir sıra məsələlər barədə müzakirələr aparıblar.

* * *

Dekabrın 17-də İstanbul şəhərində Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov, Gürcüstanın Müdafiə naziri xanım Tinatin Xidaşeli və Türkiyə Respublikasının Milli Müdafiə naziri İsmət Yılmaz arasında üçtərəfli formatda görüş keçirilib.

Görüşdə ölkələrimiz arasında müdafiə sahəsində əməkdaşlığın üçtərəfli formatda inkişaf perspektivləri, dünyada və regionda cərəyan edən proseslər, bölgədə sülhün, sabitliyin və iqtisadi inkişafın təmin olunması istiqamətində fəaliyyətlər və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

Xüsusi vurğulanıb ki, üç qonşu xalq arasında dostluq əlaqələri inkişaf edir və dövlətlərimiz arasında strateji



tərəfdaşlıq səviyyəsinə yüksələn münasibətlər xalqlarımızın iradəsini əks etdirir. Qarşılıqlı etimada əsaslanan bu əlaqələr regionda sülhün və sabitliyin, davamlı inkişafın bərqərar edilməsi, eləcə də xalqlarımızın rifahının təmin olunması baxımından mühüm rol oynayır.

Danışıqlardan sonra kütləvi informasiya vasitələrinin nümayəndələri üçün brifinq keçirilib. Müdafiə nazirləri üçtərəfli görüşün yekunları barədə medianı məlumatlandırıblar.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Azərbaycan öz haqqını bərpa etməli və bu yolda istənilən vasitəyə əl atmalıdır

**(Əvvəli 1-ci səhifədə)**

Cəbhə xəttində, çətin və ekstremal şəraitdə xidmət edən şəxsi heyətin ziyarət edilməsi, döyüşçülərlə maraqlı görüşlərin, vətənpərvərlik tədbirlərinin keçirilməsi artıq Müdafiə Nazirliyinin rəhbərliyində təqdirəlayiq ənənə halını alıb. Elə bir bayram olmaz ki, başda general-polkovnik Zakir Həsənov olmaqla nazirliyin



rəhbər heyəti səngərlərə getməsin, əsgərlərlə görüşməsin. Həqiqətən, belə tədbirlərin ənənəyə çevrilməsi çox önəmlidir, çünki qışın sazağında, boranında əlində silah Vətənimizin keşiyini çəkən oğulların maddi ehtiyacdan daha çox mənəvi qayğıya ehtiyacı var. Həm də belə görüşlər, Müdafiə nazirinin əsgərlə şəxsən söhbət etməsi, döyüşçünü maraqlandıran məsələləri bilavasitə onun özündən eşitməsi, şəxsi heyətə xoş ovqat aşılayır.

Müdafiə Nazirliyinin Mətbuat Xidməti tərəfindən yayılan məlumatlarda qeyd olunduğu kimi, Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti dekabrın 16-da cəbhəboyu zonada yerləşən birlik, birləşmə və hərbi hissələrdə olub.

Müdafiənin ön xəttində yerləşən hərbi hissələrdə düşmənlə üz-üzə səngərlərdə döyüş növbəsi çəkən şəxsi heyətlə görüşən Müdafiə naziri hərbi qulluqçuların döyüş hazırlığı və sosial-məişət şəraiti ilə maraqlanıb. Nazirə məlumat verilib ki, yüksək dağlıq ərazilərdəki mövqelərdə yerləşən şəxsi heyət qablaşdırılmış qida məhsulları, o cümlədən gündəlik olaraq küftə, üç növ dolma və digər milli xörəklərlə, əşya-əmlak, yanacaq və istiliklə tam təmin olunub.

Məlumatda, həmçinin, qeyd edilib ki, general-polkovnik Zakir Həsənov xidmətdə fərqlənən bir qrup hərbi qulluqçunu mükafatlandırıb, onlara qiymətli hədiyyələr təqdim edib. Bir dəfə cəbhə xəttində görüşdüyüm gənc döyüşçülərdən biri qoluna taxdığı qiymətli saatı göstərib qürurla demişdi ki, bu hədiyyə mənə Müdafiə nazirimiz tərəfindən şəxsən təqdim edilib. Bu sözləri deyən əsgərin baxışlarında bir dünya sevinc, fərəh hiss etmişdim. Bax, əsgəri də məğ-



lubedilməz edən, onu qələbəyə ruhlandıran əsas xüsusiyyətlərdən biri məhz belə münasibətdir. Yəni rəhbərin öz əsgərinə doğma münasibətidir.

Hər dəfə Müdafiə naziri cəbhə bölgələrindəki hərbi bölmələrin şəxsi heyəti ilə söhbətlərində Prezident, Ali Baş Komandan İlham Əliyevin tapşırıq və tövsiyələrini əsgər və zabitlərimizə çatdıraraq onun bu sözlərini daim xatırladır: "Azərbaycan öz haqqını bərpa etməli və bu yolda istənilən vasitəyə əl atmalıdır".

Həmin məlumatda vurğulanıb ki, düşmənlə təmas xəttində yerləşən bölmələrin birində komanda-müşahidə məntəqəsinə baş çəkən Müdafiə nazirinə ərazidəki əməliyyat şəraiti, müdafiə zolağında həyata keçirilən tədbirlər barədə məruzə edilib. Habelə nazir müasir avadanlıqlarla təmin edilmiş Ön İdarəetmə Mərkəzinin fəaliyyəti, qoşunların daimi idarə olunması, birlik, birləşmələrin qərargahları ilə bölmələr arasında qarşılıqlı operativ əlaqə, rabitə və elektron vasitələrin dayanıqlığı, əhatə dairəsi, eləcə də döyüş və ya əməliyyatların idarə olunması imkanlarını yoxlayıb.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Vüsal HƏMİDOVUNDUR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənilər həftə ərzində 18 ölü və 20-dən artıq yaralı olaraq itki verib

Ötən gün və gecə ərzində Silahlı Qüvvələrimizin bölmələri müxtəlif istiqamətlərdə düşmənin təxribat törətmək cəhdlərinin qarşısını qətiyyətlə alaraq onun atəş nöqtələri və mövqelərinə müxtəlif çaplı silahlardan dəqiq zərbələr endiriblər. Qarşı tərəfin bir neçə texnikası sıradan çıxarılıb, şəxsi heyəti arasında ən azı 2 nəfər ölən və 4 yaralanan var. Ümumilikdə ermənilər həftə ərzində 18 ölü və 20-dən artıq yaralı olaraq itki verib.

Düşmənlə döyüş toqquşmasında Silahlı Qüvvələrimizin hərbi qulluqçusu əsgər Nurməmmədzadə İbrahim Əvəz oğlu həlak olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin yaxınlarına, əzizlərinə dərin hüznlə başsağlığı verir və səbr diləyir!

Silahlı Qüvvələrimizin bölmələri əməliyyat şəraitinə nəzarət etməklə düşmənin bütün hərəkətlərinin qarşısını almaq məqsədilə qabaqlayıcı tədbirlər həyata keçirir.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***22 dekabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 və 82 millimetrlik minaatanlardan, həmçinin, iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 102 dəfə pozub.

Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Çaylı, Göyarx, Ağdam rayonunun Şıxlar, Novruzlu, Cəvahirli, Kəngərli, Sarıcalı, Şuraabad, Yusifcanlı, Mərzili, Qaraqaşlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli, Aşağı Veysəlli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 110 dəfə atəş zərbəsi endirib.

*Ön xətdən reportaj*

# "Azərbaycan əsgəri torpaqlarımızı azad etmək qüdrətindədir"

***Gedirəm... Yolum yenə də Vətən keşikçilərinin yanınadı. Evdən çıxarkən təhsil aldığım universitetdəki müəllimim Etibar Babayevi və onun dediklərini xatırlayıram... "Jurnalistin müşahidə etmə qabiliyyəti olmalıdır. O hər zaman insanların gördüyünü yox, görə bilmədiyini görməlidir".***

Bu düşüncələrlə yoluma davam edirəm. Ayağımdakı uzunboğaz çəkmə və hərbi geyimim məni adi günlərdəkindən fərqli göstərir. Metroda insanların baxışlarına diqqət edirəm. Hər baxış fərqlidir... Kimisi bu formanı daşıyanlara işğalda olan torpaqlarımızın xilaskarı kimi baxır, kimisi forma geyindiyi günləri xatırlayır.

Sərhəd bölgəsinə gedən qatara minirəm... Yenə də diqqətim insanlara dikilir. Mənimlə üzbəüz əyləşən yaşlı qadının baxışlarını üzərimdə hiss edirəm. Baxışlarını oxumaq elə də çətin deyil.

Düşünürəm "yəqin ki, övladı, nəvəsi və ya başqa bir doğması bu formanı daşıyır". Birdən yaşlı qadın "Allah sizləri qorusun... Nəvəm də əsgərdi", - deyir.



Düşündüklərimdə yanılmamışam...

Budur, artıq mənzil başına gəlib çatırıq. Bizi zabit Vüsal Hüseynov qarşılayır. O, xidmətinin əksər hissəsini cəbhə bölgəsində keçirən, həyatını orduya bağlayan insanlardandı. İndi isə şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinə cavabdeh zabitlərdəndir.

- Xidmət etdiyim illərdə on minlərlə əsgər tanımışam. Onların içindən xalqını, millətini, dövlətini sevməyəni görməmişəm. Hər bir əsgərdə Vətən, bayraq sevgisi, düşmənə nifrət görmüşəm. İndi isə ordumuz çox güclüdür. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun orduda apardığı islahatların nəticəsi olaraq bu gün hərbi qulluqçuların uğurlu xidmət keçmələri üçün əlverişli şərait yaradılır. Hərbi hissələrimizdə, döyüş postlarında əsgərlərimizin sosial-məişət şəraiti yaxşılaşdırılıb. Silah-sursat gücləndirilib. Hər kəs Ali Baş Komandanın əmrini gözləyir, - dedi təcrübəli zabit.

Söhbətimizi başa vurub döyüş postuna yollanırıq. Avtomobil asfalt yolda irəlilədikcə sürücüyə, fotomüxbirimizə və zabit Vüsal Hüseynova diqqət kəsilirəm.

Hər kəs nəsə düşünür... Sürücü avtomobili məharətlə idarə etmək, fotomüxbir mənalı şəkillər çəkmək, zabit şəxsi heyətin mənəvi-psixoloji vəziyyətini yüksəltmək, mən isə yazacağım reportaj haqqında düşünürəm.

Belə düşüncələrlə tabora gəlirik. Burada mayor Vüsal Bayramovla görüşürük.

O da uzun illərdir torpaqlarımızın azadlığı naminə gecə-gündüz orduda xidmət



edən zabitlərdəndir.

- Düşmən atəşkəsi pozur, layiqli cavabını alır. Əsgərlərimiz qorxmaz və cəsurdurlar. Hər an düşmən üzərinə getməyə, torpaqlarımızı azad etməyə hazırdırlar.

Döyüş postundayıq. Düşmənlə məsafə elə də çox deyil. Vaxt itirmədən səngərə can atırıq. Səngərlər təmiz və səliqəlidir.

Baş leytenant Təbriz Pirimov bir-birindən cəsur, vətənpərvər əsgərlərlə bizi tanış edir. Döyüş növbəsində olan əsgərlərdən birinə - Ziyəddin Qocayevə yaxınlaşırıq. O, növbədə olduğu müddətdə heç bir hadisə olmadığı barədə məlumat verir. Qazax rayonundan hərbi xidmətə çağırılan 15 ayın əsgəri Z.Qocayev Vətənin keşiyində dayanmaqdan qürurlu olduğunu bildirir.

- Bir ilə yaxındır ki, səngərdə torpaqlarımızı qoruyuram. Ana Vətənimi qorumaqdan şərəfli, qürurlu, müqəddəs nə ola bilər ki?

Növbəti həmsöhbətim olan əsgər Mehman Rzazadə isə ali təhsillidir. Nümunəvi xidməti ilə seçilən əsgər "düşmən bizdən qorxsun. Azərbaycan əsgəri, Azərbaycan Ordusu işğalda olan torpaqları azad etmək qüdrətindədir". - deyir.

Əsgərlərlə söhbətimizdən onların nə dərəcədə döyüşə hazır olduğunu, Vətəni necə sevdiklərini anlamamaq mümkün deyil. Bir xalqın, bir ordunun gücü onun var-dövləti, silah-sursatı ilə yanaşı, insanlarının Vətən sevgisindədir.

Növbəti dəfə əli tətikdə, gözü nişangahda olan əsgərlərimizi müşahidə etdim. Düşüncələrini, arzularını öyrəndim. Hər birinin gözündə düşmənə nifrət, qəzəb vardı. Tək arzuları torpaqlarımızı azad etmək, Vətənimizi bütöv görməkdir...

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**M.MAHMUDUNDUR**

# Vyetnamlı hərbçilərin ordumuzla tanışlığı



***Azərbaycan Respublikası Müdafiə Nazirliyinin dünyanın bir çox ölkələri ilə hərbi əməkdaşlığı yüksək səviyyədə davam etdirilir. İnkişaf etmiş ölkələrin orduları ilə daim təcrübə mübadiləsi aparılır. Beynəlxalq əlaqələrimiz günü-gündən genişlənir. Dekabrın 16-da Vyetnam Sosialist Respublikasının hərbçiləri ölkəmizə səfərə gəliblər. Nümayəndə heyətinə Vyetnam Hərbi Dənizçilik Məktəbinin rəis müavini, 1-ci dərəcəli kapitan Phan Van Van rəhbərlik edib.***

Qonaqlar əvvəlcə şəhərimizin görməli yerlərini gəzdilər. Dövlət Bayrağı Meydanı və muzeyi ilə yaxından tanış oldular. 1-ci dərəcəli kapitan Tərlan Seyfullayev qonaqlara Bakı şəhərində aparılan quruculuq və abadlıq işləri barədə məlumat verdi.

Azərbaycan Hərb Tarixi Muzeyini ziyarət etmək də qonaqların üreyincə oldu. Vyetnamlı hərbçilər burada nümayiş olunan hərb tariximizə dair eksponatlarla böyük maraq hissi ilə tanış oldular.

Ertəsi gün səfər çərçivəsində qonaqlar Şəhidlər xiyabanını ziyarət etdilər. Qonaqlara Qarabağ müharibəsindən, ermənilərin işğalçılıq hərəkətlərindən və törətdikləri dəhşətli faciələr barədə geniş məlumat verildi. Vyetnamlı hərbçilər şəhid məzarlarının və "Əbədi Məşəl" abidə kompleksinin önünə gül dəstələri düzdülər. Şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Sonra qonaqlar Hərbi Dəniz Qüvvələrinin yerləşdiyi ünvana yollandılar. Vyetnamlı hərbçilər burada təntənə ilə qarşılandı. Onların şərəfinə qərargahda brifinq keçirildi. 1-ci dərəcəli kapitan Şahin Məmmədov qonaqlara ordumuzda, həmçinin, Hərbi Dəniz Qüvvələrində aparılan quruculuq işlərindən ətraflı danışdı və şəxsi heyətin təlimlərdə göstərdiyi uğurlardan söz açdı. Brifinqdə Hərbi Dəniz Qüvvələrinin iştirakı ilə keçirilən təlimlərin videoçarxı nümayiş olundu. Brifinq başa çatdıqdan sonra qonaqlar Hərbi Dəniz Qüvvələrinin ərazisi ilə yaxından tanış oldular və gəmilərə baxış keçirdilər. Qonaqları maraqlandıran suallar da ətraflı cavablandırıldı.

Brifinqdən sonra qonaqlar Hərbi Dəniz Qüvvələrinin "Şərəf kitabı"na ürək sözlərini yazdılar.



Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbində də vyetnamlı hərbçilər təntənə ilə qarşılandı. Qonaqlar tədris ocağı ilə yaxından tanış oldular. Onların gəlişi ilə bağlı Ali Hərbi Dənizçilik Məktəbində brifinq keçirildi. Çıxış edən 1-ci dərəcəli kapitan Əlimərdan Quliyev tədris müəssisəsi barədə vyetnamlı hərbçilərə geniş məlumat verdi.

Silahlı Qüvvələrin Hərbi Akademiyasını ziyarət qonaqlar üçün səmərəli oldu. Nümayəndə heyətini akademiyanın binası önündə polkovnik Razi İsmayılov qarşıladı. Akademiya ilə tanışlıq brifinq zalında davam etdirildi. Nümayəndə heyətinə Hərbi Akademiyanın yaradılması ilə bağlı geniş məlumat verildi. Vyetnamlı hərbçilər ali tədris ocağında təcrübə mübadiləsi apardılar. Qarşılıqlı anlaşma şəraitində keçən görüş hər iki tərəf üçün uğurlu oldu.

Vyetnamlı hərbçilər Silahlı Qüvvələrin Hərb Oyunları Mərkəzinə də baş çəkdilər. Qonaqlar mərkəzin iş prinsipi ilə yaxından tanış oldular. Kompüterlə aparılan dəniz təlimlərini izlədilər. Mərkəzin rəisi polkovnik Rafil Malıyev təlimlərin keçirilmə qaydaları barədə qonaqlara geniş məlumatlandırdı.

Nümayəndə heyətinin rəhbəri 1-ci dərəcəli kapitan Phan Van Van Azərbaycana səfərindən, həmçinin, ordumuzla tanışlıqdan çox məmnun olduğunu bildirdi.

## I dərəcəli kapitan Phan Van Van:

# Azərbaycan mənə doğmadır

***Vyetnam Sosialist Respublikasının Dənizçilik Məktəbinin nümayəndə heyəti ölkəmizdə səfərdə olub. Səfər başa çatandan sonra nümayəndə heyətinin rəhbəri 1-ci dərəcəli kapitan Phan Van Vanla görüşüb söhbət etdim.***

***- Cənab Phan Van Van, Azərbaycana səfərinizin məqsədi barədə qısa məlumat verməyinizi xahiş edərdik.***

- Səfərimizin məqsədi ölkənizlə olan əvvəlki əlaqələri bərpa etmək, hərbçilərinizlə təcrübə mübadiləsi aparmaqdır. İndi dünya çox sürətlə dəyişir, çox sürətlə inkişaf edir. Biz həmişə yeniliyi öyrənmək, mənimsəmək həvəsindəyik. İrəli getmək, yeni texnologiyaya yiyələnmək üçün belə səfərlərin olması zəruridir. Biz istəyirik ki, Hərbi Dəniz Qüvvələrimizi, həmçinin, ordumuzu daha da gücləndirək.

***- Səfəriniz necə keçdi?***

- Bu səfəri çox uğurlu qiymətləndirirəm. Qarşımıza qoyulan vəzifələri layiqincə yerinə yetirdik.



***- Bir neçə hərbi hissə və birləşmələrdə, tədris müəssisələrində olub görüşlər keçirmisiniz. İstərdik ki, təəssüratlarınızı bizimlə bölüşəsiniz.***

- Həm tədris müəssisələrində, həm də hərbi hissə və birləşmələrdə gördüklərimdən məmnun qaldım. Hər addımda hiss olunur ki, ölkənizin rəhbərliyi ordu quruculuğuna böyük önəm verir. Hara getdiksə, harda olduqsa, təminatı yüksək səviyyədə gördük. Zabit və əsgərlərinizin döyüş hazırlığının yüksək olması da diqqətimizi cəlb etdi. Şəxsi heyətin xidmət etməsi üçün hərtərəfli şərait yaradılıb.

***- Bu sizin ölkəmizə ilk gəlişinizdir?***

- Bəli, bu mənim Azərbaycana 1-ci dərəcəli kapitan kimi ilk səfərimdir. Amma əvvəlki illərdə ölkənizdə çox olmuşam. Sizə bir sirr açaraq deyim ki, 1980-ci ildən 1986-cı ilə kimi Ali Hərbi Dənizçilik Məktəbində təhsil almışam. Gəncliyimin ən qaynar çağları burada keçib. Yenidən ölkənizdə olmaqdan qürur duyuram. Azərbaycan mənə doğma ölkədir.

***- Yəqin şəhərimizdəki dəyişiklik diqqətinizdən yayınmadı.***

- Əlbəttə, belə dəyişikliyi görməmək olarmı? Şəhəriniz çox dəyişilib, gözəlləşib. Bütün bunlar isə dövlətinizin gücündən, qüdrətindən xəbər verir. Biz belə bir güclü ölkənin ordusu ilə əməkdaşlıq etməkdən məmnun olardıq.

***- Müsahibəyə görə çox sağ olun.***

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

## Təlim

# “Texnikamız çıxışa, silahımız atəşə hazırdır”



***Zabit Səxavət Əmirovla hərbi hissənin parkında görüşdük. O, təlim zamanı istifadə olunmuş hərbi texnikalara baxış keçirirdi.***

- Təlimdən yenicə qayıtmışıq, texnika bir az toz-torpağa bulaşıb. İndi onları səliqə-sahmana salıb növbəti təlimə hazırlaşırıq, - deyə polkovnik-leytenant Səxavət Əmirov sözə başladı. - Hər zaman silahlarımız atəşə, döyüş texnikalarımız çıxışa hazırdır. Şəxsi heyətin hazırlığı yüksək səviyyədədir. Keçirilən son təlimdə şəxsi heyətimiz bir daha peşəkarlıq göstərdi. Bu gün texnikalar və silahlar döyüşə, təlimə hazırlanır. Zabit və əsgərlərimiz daim irəli - sabaha baxırlar. Təlim-məşqlərdə fəal iştirak edərək döyüş hazırlıqlarını artırırlar. Hər kəs dərindən dərk edir ki, döyüş hazırlığı nə qədər yüksək olsa, qələbə də o qədər asanlıqla qazanılar.

Zabit Pənah Abdullayev məşğələ zamanı hərbi hissənin sıra meydanında vurulmuş yeni plakatlarla şəxsi heyəti tanış edirdi. Plakatlardakı göstəriciləri zabit və əsgərlərə izah edən zabitə görə, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı daim diqqət mərkəzindədir. “Təsdiq olunmuş döyüş hazırlığı planına uyğun olaraq, məşğələ və dərslər keçirilir. Həm döyüş, həm də mənəvi-psixoloji hazırlığı yüksək olan əsgərlərin nəsibi yalnız qələbə olur".

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Naxçıvanın hər qayası bir səngərdir

***Ölkəmizin müstəqilliyinin ilk dövründə ümummilli liderimizin muxtar respublikamızda ordu quruculuğu istiqamətində həyata keçirdiyi məqsədyönlü tədbirlər blokada şəraitində yaşayan Naxçıvanı düşmən hücumlarından qorumaqla bərabər, həm də müstəqil Azərbaycanda milli ordu quruculuğu prosesinin başlanğıcı oldu. Belə ki, ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi və gərgin fəaliyyəti nəticəsində Muxtar Respublikanın Ermənistanla həmsərhəd əraziləri nəzarətə götürüldü, etibarlı müdafiə sistemi yaradıldı.***



Naxçıvanın ərazisində yerləşən Rusiya ordusunun 75-ci motoatıcı diviziyasının bütün döyüş texnikası, silah-sursatı, yaşayış binaları və digər maddi-texniki vəsaitləri saz vəziyyətdə Müdafiə Komitəsinin bazasına təhvil verildi. 15 sentyabr 1992-ci ildə Müdafiə Komitəsinin bazasında 5-ci əlahiddə gücləndirilmiş motoatıcı briqada yaradıldı. 21 may 1995-ci ildə həmin briqada motoatıcı diviziyaya, 8 dekabr 1998-ci ildə Ordu Korpusuna, 18 dekabr 2013-cü ildə isə Əlahiddə Ümumqoşun Orduya çevrildi.

Ümummilli liderimiz Heydər Əliyevin milli ordu quruculuğuna gətirdiyi mühüm yeniliklərdən biri də 9 oktyabr 1992-ci ildə Naxçıvanda ilk dəfə hərbi paradın keçirilməsi oldu. Azərbaycan dilində ilk hərbi əmrin və raportun səsləndiyi bu paraddakı çıxışında ümummilli liderimiz Heydər Əliyev deyib: "İndiyədək Naxçıvan torpağını cəsarətlə qorumuş bütün vətənpərvər oğullara, bütün könüllü dəstələrə öz minnətdarlığımızı bildiririk, onların gördükləri işləri lazımınca qiymətləndiririk. Eyni zamanda, onu da bəyan etmək istəyirik ki, artıq Naxçıvanda nizamlı milli Azərbaycan ordusunun hərbi hissələri mövcuddur. Bu hissələr lazımi gücə malikdir və Naxçıvan torpaqlarını müdafiə etməyə qadirdir... Bizim borcumuz bu hissələrin möhkəmlənməsinə, inkişaf etməsinə hərtərəfli kömək göstərməkdən, onlara yüksək qayğı ilə yanaşmaqdan, qarşılarına çıxan bütün çətinliklərin aradan qaldırılmasında yaxından iştirak etməkdən ibarətdir".

Naxçıvan əhalisinin ümummilli liderimiz Heydər Əliyevin ətrafında sıx birləşməsi nəticəsində bu qədim diyar düşmən hücumlarından qorundu. Amma həmin vaxt ölkəmizin digər ərazilərində vəziyyət tamamilə fərqli idi.

Çətin şəraitdə dövləti məhv olmaq təhlükəsindən xilas etmək üçün xalqın təkidli tələbi ilə ümummilli lider Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə qayıtdı. Bu qayıdışdan sonra ölkədə ictimai-siyasi sabitlik təmin edildi, ordu quruculuğunda genişmiqyaslı tədbirlərin həyata keçirilməsinə başlanıldı və erməni tərəfi itki verərək geri çəkilməli oldu.

Ümummilli lider Heydər Əliyevin ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlər bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir və bu məqsədyönlü iş Naxçıvan Muxtar Respublikasında da qətiyyətlə aparılır. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun qayğısı ilə hərbi hissələrin maddi-texniki təminat bazası möhkəmləndirilir, əsgərlər üçün yaşayış kompleksləri tikilir, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır, şəxsi heyətin mənəvi-psixoloji, fiziki və döyüş hazırlığı səviyyəsi əhəmiyyətli dərəcədə artırılır.

Həyata keçirilən bu məqsədyönlü işlərlə bağlı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev deyib: "Naxçıvanda Əlahiddə Ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi bizim dövlət siyasətimizdir". Elə bütün bunların nəticəsidir ki, bu gün Əlahiddə Ümumqoşun Ordunun döyüş qabiliyyətinin yüksəldilməsi, maddi-texniki təchizatı və şəxsi heyətin xidməti şəraitinin yaxşılaşdırılması daim diqqət mərkəzindədir. Əlahiddə Ümumqoşun Ordunun çətin dağlıq şəraitdə, yüksəkliklərdə yerləşən hərbi hissə və bölmələrində də nümunəvi xidmət şəraiti yaradılıb. Bütün bunların nəticəsidir ki, səngərlərdə xidmət aparan əsgərlərimiz yüksək nizam-intizama və döyüş qabiliyyətinə malikdirlər.

Ordu quruculuğunun müasir dövrün tələbləri səviyyəsində aparılması üçün Vətənə sədaqətli, peşəkar kadrların yetişdirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu mənada Naxçıvan şəhərində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi Liseyin məzunları Naxçıvan torpağının sərkərdə oğullarının və generallarının layiqli davamçıları kimi yetişirlər və Azərbaycan Ordusunun zabiti olaraq öz xidməti vəzifələrini şərəflə yerinə yetirirlər.

Əlahiddə Ümumqoşun Orduda əsgəri dostluq, yoldaşlıq münasibətlərinin və milli həmrəylik ruhunun daha da gücləndirilməsi məqsədi ilə əməli tədbirlər həyata keçirilir. Belə ki, bölmələr və hərbi qulluqçular arasında idman yarışları, bədii özfəaliyyət kollektivlərinin yaradıcılıq müsabiqələri, müxtəlif birinciliklər təşkil olunur. Təbii ki, bu cür tədbirlərin keçirilməsi həm bölmələr arasında hərbi intizamın və yarışma ruhunun daha da güclənməsinə, həm hərbi qulluqçuların asudə vaxtlarının daha səmərəli keçirilməsinə, eləcə də şəxsi heyətin mənəvi-psixoloji hazırlığına öz müsbət təsirini göstərir. Həmçinin, Əlahiddə Ümumqoşun Orduda şəxsi heyətlə ictimaiyyət nümayəndələrinin tez-tez görüşləri təşkil edilir, mədəni-kütləvi tədbirlər keçirilir. Nəticədə, xalqın onu qoruyan əsgərə inamı artır, əsgərlərin isə mənəvi-psixoloji durumu daha da yüksəlir.

Tam əminliklə deyə bilərik ki, bu gün Naxçıvan əhalisi rahat, sabitlik şəraitində yaşayır, Azərbaycan əsgərinə güvənərək öz gündəlik fəaliyyətləri ilə məşğul olur. Döyüş hazırlığını gündən-günə artıran Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti torpaqlarımızın müdafiəsində cəsarətlə dayanır, ümummilli lider Heydər Əliyevin ideyalarına sadiq qalaraq, müstəqilliyimizin qorunmasında və ölkəmizin ərazi bütövlüyünün təmin olunmasında öz vəzifələrini şərəflə yerinə yetirir. Deməli, nə bu gün, nə də gələcəkdə heç bir düşmən əli bu torpaqlara uzana bilməz.

**Nəriman NƏCƏFOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Səudiyyə Ərəbistanı Həcc ziyarəti qaydalarını sərtləşdirib



Səudiyyə Ərəbistanının Həcc Məsələləri üzrə Nazirliyi Mina dağında baş verən basırıqdan sonra zəvvarların yerləşdirilməsi və həcc ziyarətinə gedən müsəlmanlara xidmət göstərən kompaniyalar üçün lisenziya verilməsi qaydalarını sərtləşdirib. Nazirlik bu şərtlərin pozulacağı təqdirdə həcc-operatorlarının işinin dayandırılması və maliyyə sanksiyaları da daxil olmaqla, müxtəlif cəzalar tətbiq edəcəyini açıqlayıb.

Xatırladaq ki, bu il sentyabrın 24-də həcc ziyarəti zamanı Mina dağında yaranan basırıq nəticədə 700-dən çox zəvvar həyatını itirmişdi. Faciədən dərhal sonra Səudiyyə Ərəbistanının kralı həcc ziyarətinin qaydalarına yenidən baxılması barədə göstəriş vermişdi.

## 2015-ci ildə Pakistanda 637 terrorçu məhv edilib



2015-ci ildə Pakistanda 637 terrorçu məhv edilib, 710 nəfəri isə həbs olunub.

Bu barədə Pakistan Daxili İşlər Nazirliyinin məlumatında bildirilir. Məlumatda deyilir ki, terrorçular bu ilin yanvarında Pakistanda qəbul edilən Milli Antiterror Fəaliyyət Planı çərçivəsində əsasən, qəbilələrin yaşadıqları ərazilərdə, həmçinin, Bəlucistan, Pəncab və Sind əyalətlərində öldürülüb.

Qeyd olunur ki, bu il Pakistanda 14 terrorçu qrup qadağan edilib və bununla da ölkədə qadağan olunan terrorçu qruplarının sayı 61-ə çatıb.

Xatırladırıq ki, ötən ilin dekabrında Pakistanın Peşavar şəhərində terrorçuların hərbi məktəbə hücumu nəticəsində 132-si şagird olmaqla 150 adam qətlə yetirilmişdi. Bu qanlı hadisədən sonra Pakistanın Baş naziri Nəvaz Şərif ölkədə ölüm hökmünə tətbiq edilən qadağanın ləğv olunması haqqında qərar vermiş, terrorçulara qarşı əməliyyatlara başlanmışdı.

## Avropa İttifaqı hər il milyardlarla avro itirir



"Kölgə iqtisadiyyatı" ucbatından Avropa İttifaqı hər il 454 milyard avro gəlirdən məhrum olur. Bu isə ittifaqın ümumi vergi daxilolmalarının 8,6 faizi deməkdir.

İ.Keplera adına Linssk Universitetinin professoru Fridrix Şnayderin tədqiqatlarına əsasən, bu göstərici ölkələr arasında fərqlənir. Avstriyada "kölgə iqtisadiyyatı"nın həcmi 4,5 faizdirsə, Bolqarıstanda bu göstərici 18,8 faizə qədər artır.

Bundan əvvəl isə Avropa Komissiyasının hesabatında bildirilib ki, 2013-cü ildə ittifaq ölkələrində vergilərin yığılmaması səbəbindən, yalnız ƏDV üzrə itkilərin həcmi 168 milyard avro təşkil edib.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) məlumatına görə, inkişaf etməkdə olan ölkələrdə "kölgə iqtisadiyyatı"nın miqyası daha böyükdür və bir sıra hallarda iş yerlərinin yarısından çoxu məhz qeyri-leqal sektorun payına düşür.

## İlk islam hava yolu şirkəti “Rayani Air” fəaliyyətə başlayıb



Malayziyanın ilk islam hava yolu şirkəti "Rayani Air" paytaxt Kuala-Lumpurdan ölkənin kurort şəhəri olan Langkaviyə səfəri ilə uçuşlara rəsmi olaraq başlayıb.

Aviaşirkətdə müsəlman olan qadın personal hicab örtəcək, müsəlman olmayanlar isə geyimlərinə ciddi fikir verməlidilər. Şirkətin təyyarələrində sərnişinlərə donuz ətindən hazırlanmış yeməklər və məhsulların yanında spirtli içkilərin verilməsi qadağan olunub. Təyyarə uçuşa başlamazdan öncə isə dua oxunur.

## NASA Yerin Ay səthinin üfqündəki görüntüsünü yayıb



Amerikanın Kosmik fəzanın təhqiqi və aeronavtika üzrə milli idarəsi - NASA Yer kürəsinin Ay səthində üfüq üzərindən qalxmasını əks etdirən yüksək keyfiyyətli görüntü yayımlayıb. NASA-nın rəsmi saytında yer alan məlumatda Yer kürəsinin yeni görüntüsünün 1972-ci il dekabrın 7-də "Apollo-17" kosmik gəmisinin 29 min kilometr məsafədən çəkdiyi və dünyanı bütöv olaraq göstərən məşhur "Mavi Kürə" (Blue Marble) fotoşəklini xatırlatdığı bildirilir.

Yer planetinin 2009-cu il iyunun 18-dən etibarən ayda təhqiqat aparan LRO kosmik stansiyası tərəfindən çəkilmiş yeni fotosunda sağ yuxarı küncdə Saxara səhrası və Səudiyyə Ərəbistanı, solda isə Atlantik okeanı və Sakit okean görünür.

Yer kürəsinin yeni görüntüləri NASA-nın internet səhifəsində yerləşdirilib.

## Taliban hərəkatı Gilmənd vilayətində strateji rayonu nəzarətə götürüb



Taliban hərəkatı dekabrın 21-ə keçən gecə Əfqanıstanın cənubunda yerləşən Gilmənd vilayətindəki Sangin rayonunu nəzarət altına alıb.

Hökumət qüvvələri ilə baş verən şiddətli döyüşlərdən sonra Taliban yaraqlıları rayonun mərkəzindəki hökumət binasını ələ keçiriblər.

Dekabrın 21-də Əfqanıstanın Baş naziri Abdullah Abdullah Gilmənd vilayətində yaranan vəziyyəti müzakirə etmək üçün ölkənin təhlükəsizlik xidmətinin rəhbərləri ilə təcili yığıncaq keçirib.

Xatırladaq ki, son zamanlar Əfqanıstanda vəziyyət xeyli gərginləşib. Ölkənin bəzi kənd rayonlarında xeyli ərazini ələ keçirən Taliban hərəkatı böyük şəhərlər istiqamətində hücumlarını genişləndirir. Sentyabrın sonlarında Əfqanıstanın şimalında 300 min nəfər əhalisi olan Qunduz şəhərinin nəzarətinə yiyələnən yaraqlılar hazırda paytaxt Kabilin cənub-qərbində yerləşən Qəzni şəhərinə doğru irəliləyirlər.

Bu arada TASS informasiya agentliyi ABŞ-Əfqanıstan müştərək patruluna hücum olunduğu barədə informasiya yayıb. Yerli hökumətin məlumatına görə, kamikadzenin Baqram aviabazası yaxınlığında həyata keçirdiyi hücum nəticəsində beynəlxalq koalisiyanın 6 hərbçisi öldürülüb, altı nəfər isə yaralanıb. Onların hansı ölkənin vətəndaşları olduğu bildirilmir.

**AZƏRTAC-ın materialları əsasında**

# "Heydər Əliyev və Azərbaycanın Milli qəhrəmanları - Müqəddəs amal" kitabının təqdimatı olub




***Bu yaxınlarda Beynəlxalq Mətbuat Mərkəzində "Heydər Əliyev və Azərbaycanın Milli qəhrəmanları - Müqəddəs amal" kitabının təqdimatı keçirilib.***

Kitabın müəllifləri yazıçı-publisist Oqtay Əliyev və Milli Qəhrəmanları Tanıtma İctimai Birliyinin sədr müavini Nurəddin Abbasovdur.

Nəşrdə ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin şəhid milli qəhrəmanların ailə üzvləri ilə və həyatda olan milli qəhrəmanlarla görüşlərindən, dövlət tərəfindən onlara göstərilən diqqət və qayğıdan bəhs edilir. Həmçinin, ulu öndər Heydər Əliyevin milli qəhrəmanlarla görüşlərinə, Vətən haqqında fikirlərinə geniş yer verilir.




Tədbirdə çıxış edən Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov kitabın məziyyətlərindən danışıb, gənc nəslin milli ruhda, əsl vətənpərvər kimi böyüməsində, milli qəhrəmanlarımızın təbliğində bu nəşrin mühüm rol oynayacağını qeyd edib. Bildirib ki, bu kitab həm də gənclərimiz üçün bir təcrübə məktəbidir.

Yazıçı-publisist Oqtay Əliyev kitabda toplanan oçerklərdə 211 milli qəhrəmanın həyat və döyüş yollarından bəhs olunduğunu bildirib.

Tədbirdə İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının sədri, professor Cahangir Məmmədli, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu, "İki Sahil" qəzetinin baş redaktoru, əməkdar jurnalist Vüqar Rəhimzadə, Milli Qəhrəmanları Tanıtma İctimai Birliyinin sədri Elşən Uluxanlı və digərləri çıxış edərək Prezident İlham Əliyevin həmişə şəhid ailələrinə diqqət və qayğı göstərdiyini bildiriblər. Prezidentin rəhbərliyi ilə Azərbaycanın iqtisadi və siyasi qüdrətinin daha da artdığı, ordu quruculuğuna xüsusi diqqətin ölkəmizin daha da möhkəmlənməsində mühüm rol oynadığı qeyd edilib. Çıxışlarda milli qəhrəmanların tanıdılması ilə bağlı işlərin davam etdirilməsinin vacibliyi vurğulanıb.

**AZƏRTAC**

# Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ** (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*

***Şərur rayonunun Kərki və Cünnüt kəndləri** (17 fevral 1990) - 19 kv.km.*

***Laçın** (17 may 1992-ci il) - 1835 kv.km.*

***Kəlbəcər** (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*

***Ağdam** (23 iyul 1993-cü il) - 1094 kv.km.*

***Cəbrayıl** (18 avqust 1993-cü il) - 1059 kv.km.*

***Füzuli** (23 avqust 1993-cü il) - 1386 kv.km.*

***Qubadlı** (31 avqust 1993-cü il) - 802 kv.km.*

***Zəngilan** (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**



## Redaksiyanın poçtundan

# Qardaşıma məktub

*Salam, mənim əziz qardaşım. Necəsən? Anam necədir?*

*Mən artıq zabitəm. Çiynimdə gəzdirdiyim 2 kiçik səkkizguşəli ulduzların məsuliyyəti çox böyükdür. Mən axı çox şərəfli xidmət yeri olan ön mövqedəyəm. Qardaşım, mən əsgər taqımının komandiriyəm. Dəstəmizdə Azərbaycanın müxtəlif bölgələrindən əsgərlər xidmət edir. Biz bir ailə kimi ön mövqedə Vətənimiz qarşısında müqəddəs borcumuzu yerinə yetiririk. Taqım komandiri təyin olunan gündən əsgərlərlə döyüş və mənəvi-psixoloji hazırlıq üzrə təlimlər və dərslər keçirəm. Axı əsgərin yüksək hərbi bilikləri və bacarıqları bilavasitə döyüşdə uğur və qələbə deməkdir. Mən Ali Hərbi Məktəbdə qazandığım bilikləri hər cəhətdən taqımın daim döyüş vəziyyətinin yüksəldilməsinə sərf edirəm. Dərs və təlim məşğələləri keçdikcə hər bir əsgərin gözündə düşmənə böyük nifrət və qığılcım görürəm. Əsgərlərim tezliklə döyüşə atılmaq və ermənilərdən qisas almaq arzusundadırlar. Mən də hər zaman təlimlərdə onlara bu hissləri aşılayıram.*

*Əziz qardaşım, mən ön mövqedə xidmət etməyə başlayanda bir daha başa düşdüm ki, əsl kişilik məktəbi buradır. Ön mövqedə xidmət edən hər bir zabit, hər bir əsgər daim arzulayır ki, Vətənimiz tezliklə erməni qəsbkarlarından təmizlənsin və uzun illər işğal olunmuş müqəddəs torpaqlarımız işğaldan azad edilsin.*

*Qardaşım, taqımımda bir əsgər var. Onun atası birinci Qarabağ müharibəsində şəhid olub. O, tez-tez işğal olunmuş ərazilərimizə baxanda mən onun üzünün cizgilərindən qisas hisslərini oxuyuram. Onun baxışlarında düşmənə nifrət hissi var. Atası şəhid olanda o hələ balacaydı. Atasının döyüş yoldaşları tez-tez onun ailəsinə baş çəkib və göstərdiyi qəhrəmanlıqlardan ona danışıblar. Bu gün o tək öz atasının yox, bütün şəhidlərimizin qisasını almaq iqtidarındadır.*

*Əziz qardaşım, biz tez-tez təlimlərə cəlb edilirik. Bu təlimlərdə bütün silahlardan sərrast atmağı və düşmənlə mübarizə üsullarını öyrənirik. Heç bilirsən bu təlimlər necə də maraqlı keçir? Komandirlərimiz bizə hərbi bilikləri aşılayaraq döyüşün müxtəlif şəraitlərdə aparılmasını öyrədirlər. Artıq ordumuz çox güclənib. Mən səni əmin edirəm ki, əgər döyüşlər başlasa, biz mütləq qalib gələcəyik. Biz hər an Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin əmrini gözləyirik və bu amalla yaşayırıq. Biz bilirik ki, ermənilərin xain və fitnəkar əməllərinə layiqincə cavab verəcəyik.*

*Əziz qardaşım, çalış ki, sən də əsgərliyə çağırılanadək məktəbdə hərbi hazırlıq dərslərində hərb elminin incəliklərini öyrənəsən. Çünki sən bu dediklərimi əsgərliyə gəlməzdən öncə öyrənsən, xidmət etmək sənə çox asan olacaq.*

*Qardaşım, məktubumun sonunda sənə bir ismarıcım var...Hər an Vətəni sev və Vətənə görə mübariz olmaq ideyası ilə yaşa.*

*VƏTƏN anlayışı müqəddəsdir. Valideynlərimizə borclu olduğumuz kimi, Vətənə də borcumuz var. Çünki bu torpağın üzərində gəzir, bu torpaqda yaşayırıq. Çalış ki, hər zaman Vətənə layiqli əsgər olasan...*

*Öpürəm səni...*

*Sənin zabit qardaşın...*

**Hazırladı:**
**Mürsəl QURBANOV,**
**ehtiyatda olan zabit**

## General Səməd bəy Mehmandarov - 160

# Sərkərdənin yubileyinin qeyd edilməsi gənc nəslin vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır

***Prezident İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri general Səməd bəy Mehmandarovun anadan olmasının 160 illik yubileyinin keçirilməsi ilə bağlı imzaladığı sərəncama əsasən, Şuşa rayon İcra Hakimiyyətində Səməd bəy Mehmandarovun 160 illik yubileyi qeyd edilib.***

Şuşa rayon İcra Hakimiyyətinin başçısı, "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyi İdarə Heyətinin sədri Bayram Səfərov çıxış edərək Səməd bəy Mehmandarovun rəşadətli döyüş yolundan bəhs edib. Bildirib ki, şanlı döyüş ənənələri ilə zəngin olan milli tariximizin öyrənilməsi, görkəmli sərkərdələrimizin yubileylərinin keçirilməsi həm ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə, həm də hazırda dövlətimizin başçısının fəaliyyətində prioritet istiqamətlərindən biridir. O, general S.Mehmandarovun erməni təcavüzünə qarşı mübarizə tarixində Qarabağın mühüm strateji əhəmiyyətli nöqtələrində - Xankəndidə, Şuşada, Tərtərdə, Ağdamda, Əsgəranda Azərbaycanın qoşun hissələrinin yerləşdirilməsindəki, onlara həvalə edilmiş postların möhkəmləndirilməsindəki, döyüşlərin idarə olunmasındakı müstəsna xidmətləri barədə danışıb.



Gənc nəslin vətənpərvərlik tərbiyəsinə toxunan B.Səfərov qeyd edib ki, bu gün torpaqlarımızın azadlığı problemi qarşımızda durduğu bir məqamda gənclərimiz hərb tariximizi dərindən öyrənib təhlil etməli, lazımi nəticələr çıxarmalı və hərbçi kimi şərəfli bir peşəyə yiyələnmək istəyini gerçəkləşdirməlidirlər. Xalqımızın fəxri olan görkəmli hərb xadiminin keçdiyi döyüş yolu bugünkü gənc nəsil üçün əsl məktəbdir.

Şuşa rayon İcra Hakimiyyəti başçısının müavini Vüsalə Fətəliyeva, Ali Hərbi Məktəbin məzunu, 6 nömrəli orta məktəbin hərbi rəhbəri Asəf Məhərrəmov çıxışlarında general Səməd bəy Mehmandarovun mənalı ömür yolu və xidmətlərindən söz açıb, Azərbaycan Xalq Cümhuriyyəti dövründə hərbi nazirliyin mövcud olduğu il yarım ərzində Azərbaycan Ordusunun real qüvvəyə çevrilməsində igid sərkərdənin hərbi və mənəvi keyfiyyətlərinin böyük rol oynadığını diqqətə çatdırıblar. Vurğulanıb ki, müharibə şəraitində yaşadığımız indiki dövrdə bu cür sərkərdələrin yubileylərinin dövlət səviyyəsində təşkili mühüm əhəmiyyət kəsb edir və gənc nəslin vətənpərvərlik tərbiyəsində xüsusi rol oynayır.

Sonra Səməd bəy Mehmandarov haqqında film nümayiş etdirilib.

Şuşa şəhər 9 nömrəli məktəbin şagirdlərinin ifasında səslənən şeirlər tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb.

**AZƏRTAC**

# Söz sözün söykəyidi

Zəlzələ də ekstremal şərait deməkdir, selləmə-daşqın da, müharibə də. Ancaq zəlzələnin fasadları müəyyən müddətdə aradan qaldırılır.

Şəraitin müddətinə, təhlükəsizlik dərəcəsinə görə müharibədə belə olmur. Müharibə uzun çəkir. Bütün hallarda hadisə ilə bağlı informasiya əldə etmək, onu ictimailəşdirmək istəyən jurnalistlər çətinliklərlə (təhlükələrlə) üzləşirlər. Jurnalist döyüş şəraitində gərgin vəziyyətlərlə üzləşir.

Necə davranmalı? Belə şəraitdə informasiyanı necə əldə etməli? Jurnalist Əlisafa Mehdiyevin "Ekstremal jurnalistin əl kitabı"nın elmi-nəzəri, metodiki dəyəri bu amillə müəyyənləşir.

Müharibənin nə olduğunu döyüşlərdən uzaqlarda da duymaq, görmək, dərk eləmək olar - oğul itirən ananın ağılarında, atasız körpənin baxışlarında, qardaş itirən bacının lal fəryadında, sönmüş ocaqların göy üzünü göyərdən harayında... Bunları da sözə gətirən jurnalistlərdi. Digər ekstremal situasiyalarla müqayisədə jurnalistlər müharibədən (atəşkəs pozulanda döyüşlərdən) verəcəkləri informasiyalara daha həssas yanaşmalıdır. "Ekstremal jurnalistin əl kitabı"nın bu istəyə hesablandığı gümanındayam. Kitabın qayəsi bu tezislərə köklənməklə SÖZə sayğıdı, hadisəni (faktı) tarixləşdirən SÖZün vətəndaşlıq borcu biçimində mühafizəkarı olmaqdı. Digər tərəfdən, hərtərəfli, dərin təhlilin tarixiliyinə, tarixiliyin milliliyinə söykənən bu kitab jurnalistikanın yeni bir sahəsinə (Əlisafa Mehdiyevin təbirincə desək, savaş jurnalistikasına) dövlətçilik baxımından yanaşmanın, jurnalist münasibətinin (heysiyyətli münasibətin!) təzahürüdür, şübhəsiz.

Kitabda şəraiti müəyyənləşdirən şərtlər təhlil edilməklə ekstremal vəziyyətin xarakteri şərh olunur. Ekstremal hadisənin sosial-siyasi, texnoloji, ekoloji, təbii xarakterli olması, təsir dairəsinə və nəticələrinin ağırlığına görə lokal (qismi), obyekt səciyyəli, yerli, regional, milli və qlobal xarakterli olduğu qeyd edilir. Bu nəzəri-publisistik qənaət neçə-neçə hadisənin (faktın) təfəkkür müstəvisində təhlilini ümumiləşdirmənin nəticəsidir. Belə düşünürəm. İnsafən, haqlıyam. Ekstremal jurnalistə zəruri bilgi verən bu kitab istər elmi, istərsə də təcrübi dəyərə malikdir ("Görünən dağa nə bələdçi?)...

Müharibə şəraitində informasiya toplayan jurnalistdən geniş erudisiya, böyük məsuliyyət, kifayət qədər həssaslıq və vətəndaşlıq mövqeyi tələb olunur. "Ekstremal jurnalistin əl kitabı"nda müxtəlif vaxtlarda müxtəlif dövlətlərdə gedən müharibələrdə jurnalistlərin üzləşdiyi çətinliklər (təhlükələr, ekstremal vəziyyətlər) də xatırlanır, istinad biçimində bu və ya digər mətləbə "ömür vermək üçün" təhlilə cəlb olunur. Bunların Dağlıq Qarabağ və Ermənistanla sərhəd rayonlarda gedən döyüşlərdə jurnalistlərimizin informasiya toplama imkanları, yol verdikləri nöqsanların müqayisəli şəkildə təqdim olunması, bəzi məqamların nə ilə nəticələndiyinin xatırladılması cəbrən müharibəyə cəlb olunmuş Azərbaycanımızın dövlətçiliyinə jurnalist sayğısıdır.

Kitabda istər dünyada, istərsə də son 27 ildə baş vermiş hadisə və faktlar da xatırladılır ki, bu da özlüyündə çağdaş jurnalistikamız üçün, bəlkə də, ilkin nəzəri bilgi gücündədi. Məhz bu, nisbətən təkmilləşməklə ekstremal şəraitdə jurnalistin davranış




düsturu hesab edilməlidir. Əlisafa Mehdiyevin təqdim etdiyi "düstur" bu və ya digər faktla təxəyyülün sintezinin nəticəsidir, şübhəsiz. Bu baxımdan, kitab həqiqətən ekstremal jurnalistin yaradıcılığını tənzimləməyə, informasiyaların daha həyati, daha dolğun, dürüst ictimailəşdiriləcəyinə (milli heysiyyət nəzərə alınmaqla) yardımçı olacaq dərslikdir; "Ekstremal jurnalistin əl kitabı"nda Əlisafa Mehdiyevin qənaətləri (ekstremal jurnalistikanın "düsturu") bəşəri jurnalistikanın necəliyini müəyyənləşdirən məfkurə sisteminin mühüm tərkib hissəsidir.

"Ekstremal jurnalistin əl kitabı"nda ordu ilə cəmiyyət münasibətləri müxtəlif aspektlərdən araşdırılır, "müharibəyə cəlb olunmuş ölkənin bütövlükdə hərbi fəaliyyət səhnəsinə çevrildiyi" qeyd edilir, Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən müharibənin xarakteri səciyyələndirilir, jurnalistlərə Silahlı Qüvvələr və ordu mənsubları haqqında verilən informasiyalarda onun spesifik təyinatını, cəmiyyət və dövlət üçün əhəmiyyətini unutmamaq tövsiyə edilir, informasiya toplama mexanizmi göstərilir...

Ekstremal jurnalist peşə hazırlığıyla yanaşı, bəzi zəruri bilgilərə də malik olmalıdır. Hansı şəraitdə necə davranılmalı olduğunu bilməyən jurnalistin ictimailəşdirdiyi informasiyanın təsirliyi H.Zərdabi demişkən, "həqiqətin ayinəsi" ola bilmir. Digər tərəfdən, ekstremal şəraiti şərtləndirən amillər xarakteri etibarilə müxtəlif olsa da, mahiyyəti etibarilə jurnalistin necə davranmalı olduğunu dəqiqləşdirməyə meyillidir. Zəlzələ də ekstremal şəraitdir, daşqın-selləmə də, müharibə də. Ekstremal şərait (konkret olaraq müharibə) bəzən jurnalisti hadisənin kənar iştirakçısına çevirir.

Əlisafa Mehdiyevin təqdim etdiyi "Nəzərə alınması hər zaman gərəkən fərdi təhlükəsizlik şərtləri" də, "Təhlükəli tapşırıqlarda olan jurnalistlərin sağ qalmalarının başlıca prinsipləri" də ekstremal jurnalistə (bu anlamda SÖZə!) sayğının nəşri təzahürüdür. Bəsirət gözüylə oxuyanlar üçün "Heç bir xəbər sizin həyatınız qədər qiymətli ola bilməz" tezisi kitabın hansı zərurətdən yazıldığının, hansı missiyanın icrasına yönəldildiyinin təsdiqidir.

Jurnalist Əlisafa Mehdiyevin "Ekstremal jurnalistin əl kitabı" müharibənin sonunu tezləşdirmək istəyinə işıq salan jurnalist sözüdü. Həm də doğru, dürüst söz...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan cüdoçusu "Sportinq"ə bürünc medal qazandırıb



Azərbaycan cüdoçusu Rüstəm Orucov Portuqaliyanın "Sportinq" klubunun heyətində Vyanada keçirilən Qızıl liqanın bürünc mükafatçısı olub. Avropanın ən güclü klublarını bir araya gətirən komanda turnirində "Sportinq" klubu əvvəlcə "Dinamo-Alanye" üzərində qələbə qazanıb (4:1), lakin gərgin mübarizə şəraitində keçən yarımfinalda turnirin qaliblərinə - "Fifhter Tbilisi" klubuna 2:3 hesabı ilə uduzub.

Portuqaliya komandası bürünc medal qazanmaq şansından istifadə edərək, kiçik finalda 4:1 hesabı ilə ev sahiblərinə - "Galaxy Tigers Vienna" klubuna qalib gəlib.

Beləliklə, R.Orucov mövsümü major not ilə başa çatdırıb və bu il şəxsi mükafatlarına "Sportinq"in heyətində qazandığı bürünc medalı əlavə edib.

## Azərbaycanlı şahmatçı "Australian Masters-2015" turnirinin qalibi olub



Azərbaycanlı şahmatçı Kənan İzzət Melburnda keçirilən "Australian Masters-2015" beynəlxalq şahmat turnirinin qalibi olub.

Həmyerlimiz yeddinci turda Luke Lini (Yeni Zelandiya) məğlub edib, sonuncu turdan əvvəl-səkkizinci turda Ari Deylə (Avstraliya qalib gəlib, sonuncu turu isə Ceyms Morrislə (Avstaliya) heç-heçə başa vurub.

Beləliklə, Kənan izzət 7,5 xal toplayıb və ona çatmaqda olan Maks İlinqvortu (Avstraliya) yarım xal keçərək I yerə çıxıb.

Qeyd edək ki, Kənan İzzət və Maks İliqvort beynəlxalq qrossmeyster normalarını yerinə yetiriblər.

## Azərbaycan atletləri Volqoqradda dörd medal qazanıblar



Volqoqradda Olimpiya çempionu Tatyana Lebedovanın şərəfinə atletika üzrə beynəlxalq turnir keçirilib.

Yarışda yeniyetmə atletlərimiz 4 medal qazanıblar. Qızlar arasında 60 metr məsafəyə qaçış yarışlarında Yelena Pextireva qızıl, Fəxriyyə Tağızadə isə bürünc medala sahib olublar. Oğlanların yarışında 60 metr məsafəyə qaçışda Riyad Quluzadə fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Rüstəm Məmmədov isə üçtəkanla tullanmada bürünc medal qazanıb.

## Şəhriyar Məmmədyarov "Qatar Masters Open-2015" beynəlxalq şahmat turnirində ilk qələbəsini qazanıb




Qətərin paytaxtı Dohada "Qatar Masters-2015" beynəlxalq şahmat turniri start götürüb.

Turnirdə Azərbaycan qrossmeysteri Şəhriyar Məmmədyarovla yanaşı, hazırkı dünya çempionu Maqnus Karlsen, Vladimir Kramnik, Aniş Qiri, Vesli So, Sergey Karyakin, Yevgeni Tomaşevski və digər tanınmış şahmatçılar iştirak edirlər. Birinci turda Şəhriyar Məmmədyarov Ukrayna təmsilçisi Natalia Jukova üzərində qələbə qazanaraq aktivinə ilk xalını yazmağa müvəffəq olub. İkinci turda həmyerlimizin rəqibi Sinqapur şahmatçısı Jonq Janq olacaq. Otuz ölkədən şahmatçının qatıldığı yarış İsveçrə sistemi ilə 9 turdan ibarət olaraq keçirilir.

## Yeniyetmə güləşçilərimiz Kaspiyskdən 1 gümüş və 1 bürünc medalla qayıdıblar



Dağıstanın Kaspiysk şəhərində yeniyetmə sərbəst güləşçilər arasında beynəlxalq turnir keçirilib.

Məşqçi Namiq Quliyevin rəhbərliyi altında turnirdə iştirak edən yığmamızın üzvləri 1 gümüş və 1 bürünc medala sahib olublar. Turnirdə 76 kiloqram çəki dərəcəsində mübarizə aparan İsmayıl Abdullayev yalnız finalda məğlub olaraq gümüş medalla kifayətlənib. Bürünc medalı isə yığmamıza 42 kiloqram çəki dərəcəsində Tural Əsgərov qazandırıb.

**AZƏRTAC-ın materialları əsasında**

Polkovnik-leytenant Nəciyev İlqar Rəşid oğluna 2014-cü ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Baş leytenant Bağırov Bahadur Səməd oğluna 2010-cu ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Cəfərov Mahir Mehman oğluna 2012-ci ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 1010
Nüsxə 4710